No: 01 2026
https://doi.org/10.64400/ea26-01-02
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

# TƏRƏQQİ VƏ MÜHARİBƏ İLLƏRİNİN STAXANOVÇULARI (1935-1945-Cİ İLLƏR)

**Fəxrəddin CƏFƏROV** [1], **Yaşar RƏHİMOV** [1]
[1]Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan.
*Yazışılan müəllif: fexreddinceferov@edu.az*

**NƏŞR TARİXİ:**
*Qəbul edilmə tarixi: 03.03.2026*
*Nəşr edilmə tarixi: 17.03.2026*

**AÇAR SÖZLƏR:**
Naxçıvan, Staxanov, yenilikçi,tərəqqi illəri, müharibə illəri, təltif və mükafatlar

**XÜLASƏ**
Azərbaycanın və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan bölgəsinin 20-30-cu illər tarixinin öyrənilməsinin mühüm elmi və siyasi əhəmiyyəti vardır. Məqalədə 30-cu illərdə əmək məhsuldarlığını yüksəltmək uğrunda genişlənən hərəkatlardan biri olan staxanov hərəkatından, verilən dövlət tapşırıqlarını artıqlamasılə yerinə yetirmək uğrunda mübarizənin genişlənməyə başlamasından və bu hərəkatın kütləvi hərəkata çevrilməsi üçün partiyanın təşkil etdiyi tədirlərdən və muxtar respublikda bu hərəkatın nümayəndələrinin fəaliyyətindən bəhs edilir. Bu hərəkatın böyük yaradıcı qüvvəsi muxtar respublikamızın zəhmətkeşlərinin də misilsiz əmək qəhrəmanlıqları göstərməsində mühüm rol oynamışdır. Staxanovçuların, o cümlədən muxtar respublikanın sənaye müəssisələrində və kolxoz tarlalarında fəaliyyət göstərən staxanovçuların fədakar əməyi düşmən üzərində qələbə qazanılmasında böyük rol oynadı. Vurğulanmışdır ki, bu hərəkat 1935-ci ildə sosializm yarışının yeni mərhələsi kimi yaranmışdır. Öz şanlı ənənələrinə sadiq qalan muxtar respublikamızın əməkçiləri sosialzm yarışını daha da genişləndirmişlər. Məqalədə muxtar respublika yenilikçilərinin -staxanovçuların mükafatlandırılması, təltif edilmələri və s. məsələlər, həmçinin müharibə və bərpa illərində muxtar respublika staxanovçuların fəaliyyəti də araşdırılaraq tədqiq edilmişdir. Zəhmətkeş kənd əməkçiləri yüksək öhdəliklər götürərək öz vədlərinə şərəflə əməl etmişlər. Həmyerlilərimiz xalq təsərrüfatının bütün sahələrində çox böyük uğurlar qazanmışlar.

## GİRİŞ

1935-ci il avqust ayının 30-dan-31-nə keçən gecə Donbasın qazmaçısı Aleksey Staxanov əmək məhsuldarlığı sahəsində dünya rekordu vurdu. O, şaxtaya enərək 6 saatlıq iş günündə kömürsındıran çəkiclə 102 ton kömür çıxarıb normanı 14,5 dəfə ötmüşdü. Adətən qazmaçı nəinki kömür çıxarır, habelə şaxtanı da özü bərkidirdi ki, bu işə də onun vaxtının yarısı gedirdi və həmin saatlarda kömürsındıran çəkic boş dayanırdı. Aleksey Staxanov isə bu işi başqa şəkildə təşkil etmişdi. O, yalnız kömür çıxarır, iki yardımçı fəhlə isə onun ardınca şaxtanı bərkidirdi. Buna görə də qazmaçı bütün növbə ərzində məhsuldar işləyərək kömürü fasiləsiz çıxarırdı. Staxanovdan digər qazmaçılar nümunə götürdülər və əvvəllər misli görünməmiş bir məhsuldarlıqla işləməyə başladılar.

Staxanovun göstərdiyi böyük əmək qəhrəmanlığı dərhal ölkənin hər yerində yayıldı. Sənaye müəssisələrində və geniş kolzoz tarlalarında əmək məhsuldarlığını daha da yüksəltmək, verilən tapşırıqları qat-qat artıqlamasılə yerinə yetirmək uğrunda mübarizə sürətlə genişlənməyə başladı. Sovet xalqı sosializm yarışının bu yeni yükşəlişinə Staxanov hərəkatı adı verdi.

Kommunist Partiyası Staxanov hərəkatına tərəfdar çıxdı və bu hərəkatı kütləvi hərəkata keçirmək üçün tədbirlər qəbul etdi. 1935-ci ilin noyabrında Moskvada staxanovçuların Ümumittifaq müşavirəsi çağırıldı. Üç mindən çox qabaqcıl fəhlə, kolxozçu, partiya və hökumət rəhbərləri ilə birlikdə qabaqcılların məhsuldarlığı səviyyəsinə bütün fəhlələrin çatması üçün nə kimi tədbirlər qəbul etmək məsələsini müzakirə etdilər. 1935-ci ilin dekabrında MK-nın plenumu Staxanov hərəkatı məsələlərinə həsr olundu ki, bu plenumun işində 3 minə yaxın qabaqcıl fəhlə, mühəndis və kolxozçu iştirak etmişdi.

Plenumun qərarında xüsusi olaraq qeyd olunurdu ki, Staxanov hərəkatını daha inkişaf etdirmək üçün fəhlələrin mədəni-texniki səviyyəsini durmadan yüksəltmək, texniki minimum təlimini bütün

fəhlələr və fəhlə qadınlar üçün ümumi və icbari etmək lazımdır. Pariyanın, həmkarlar ittifaqlarının, komsomolun köməyi sayəsində yeniliklər hərəkatı kütləvi xarakter aldı.

30-cu illərdə əmək məhsuldarlığını yüksəltmək uğrunda mövcud olan hərəkatlarlardan biri də Staxanov hərəkatı oldu. Staxanov hərəkatı -SSRİ-də sosialist istehsalı yenilikçilərinin-qabaqcıl fəhlələrin, kolxozçuların, mühəndis-texnik işçilərin yeni texnikanı mənimsəməklə əmək məhsuldarlığını yüksəltmək uğrunda kütləvi hərəkatı idi. Bu hərəkat 1935-ci ildə sosializm yarışının yeni mərhələsi kimi yaranmışdır. "Staxanov hərəkatı" onun təşəbbüsçüsü olan Donbas şaxtaçısı Aleksey Staxanovun adı ilə bağlıdır. Azərbaycan SSR-də Staxanov hərəkatının təşəbbüskarları-neft sənayesində Ağa Nemətulla, İsmayıl Mikayıl, Q.Əsədov, toxuculuq sənayesində K.Rzayeva, M.Nəbiyev, baramaaçmada A.Həsənov, M.Qafarov, duz sənayesində M.Musayev, kənd təsərüffatında B.Bağırova, Q.Səmədov və başqaları olmuşlar.

Tərəqqi illərinin staxanovçuları

Staxanov hərəkatı kommunizm qurmaq uğrunda mübarizədə mühüm şərt olan əmək məhsuldarlığının artırılmasında həlledici rol oynadı.

Sovet xalqı özünün staxanovcasına əməyi ilə dövlət beşilliklərinin vəzifələrini vaxtından əvvəl yerinə yetirməyə nail oldu. Təkcə ikinci beşillikdə məhsuldarlıq 82 faiz artdı. Böyük Vətən müharibəsi illərində misilsiz xarüqələr yaradıldı. Staxanovçuların fədakar əməyi düşmən üzərində qələbə qazanılmasında böyük rol oynadı.

Staxanov hərəkatının böyük yaradıcı qüvvəsi muxtar respublikamızın zəhmətkeşlərinin də misilsiz əmək qıhrəmanlıqları göstərməsində böyük rol oynamışdır.

Muxtar respublikamızın əməkçiləri Staxanov hərəkatına qoşularaq bağladıqları sosializm yarışının şərtlərinə əməl edərək sənaye və kənd təsərrüfatı işçilərindən bir qrupu Mərkəzi İcraiyyə Komitəsinin 19 yanvar 1936-cı il tarixli qərarı ilə qiymətli hədiyyə və pul mükafatına layiq görüldülər.

Sosializm yarışı vı staxanov hərəkatının genişlənməsində kolxoz rəhbərlərinin əməyi də az olmamışdır. Naxçıvan (Babək) rayonunun Güznüt kənd kolxozunun sədri Novruz Novruzov, şəhər ətrafı kənd "İttifaq" kolxozunun sədri Abbas Abbasov, Noraşen (Şərur) rayonunun Zeyvə kənd kolxozunun sədri Əliağa Rzayev, Baş Noraşen (Cəlilkənd) kolxozunun sədri Maho Osmanov, Mahmudkənd kolxozunun sədri Camal Əliyev və başqaları gördükləri tədbirlərr nəticəsində əmək məhsuldarlığı yüksəlmiş, kolxozların ümumi gəliri ildən-ilə 2-4 dəfə artmışdı.

Naxçıvan (indiki Babək) rayonunun Güznüt kəndindəki 26 Bakı komissarı adına kolxozun üzvləri Staxanov hərəkatında yaxından iştirak edərək 1935-ci ildə əkin sahələrindən 248 sentner əvəzinə 360 sentner pambıq götürməyə nail olmuşlar. Bu yüksək nailiyyətlərə görə kolxozun bir çox staxanovçusu pulla mükafatlandırılmış və təsərrüfatda hər bir əmək gününə 10 kiloqram buğda, 10 manat pul bölünmüşdür. Naxçıvan rayonunun Əliyabad kəndindəki "Proletar" və şəhərətrafı "İttifaq" kolxozunun üzvləri bu hərəkatın ön sıralarında gedərək 1935-ci ilin dövlət planlarını və sosialist öhdəliklərini vaxtından əvvəl yerinə yetirmişlər.

Muxtar respublikanın digər rayonlarının təsərrüfatları, o cümlədən Şərur rayonunun Zeyvə kəndinindəki Qarayev adına, Baş Noraşen (indiki Cəlilkənd) kəndindəki Noqin adına, Mahmudkənddəki Telman adına və b. kolxozların əməkçiləri də Staxanov hərəkatına qoşularaq 1935-ci ildə dövlət planlarını vaxtından əvvəl və artıqlaması ilə yerinə yetirmişlər.

Yüksək pambıq ustası, Naxçıvan MSSR Ali Sovetinin deputatı, Noraşen (Şərur) rayonunun Sərxanlı kəndindəki kolxozun manqabaşçısı İlyas Mustafayev 1936-1938-ci illərdə 5 hektar pambıq əkini sahəsinin hər hektarından 80,2 sentner məhsul götürdüyünə görə "Qızıl" medal və 3 min manat pulla mükafatlandırılmışdır. Həmin rayonun Çomaxtur kəndindən Naxçıvan MSSR Ali Sovetinin

deputatı Nəsrulla Tahirov, Muğancıq-Mehrab kəndindən Naxçıvan MSSR Ali Sovetinin deputatı Sara Əliyeva və başqaları da qiymətli hədiyyələrlə və pulla mükafatlandırılmışlar.

Naxçıvan MSSR-in təsərrüfatlarında çalışan staxanovçular 1939-cu ilin plan tapşırıqlarını artıqlaması ilə yerinə yetirərək dövlətə plandan əlavə tonlarla kənd təsərrüfatı məhsulları vermişlər. Həmin il pambıq satışı planı 133,3 faiz, tütün satışı planı 106 faiz, barama satışı planı 110 faiz yerinə yetirilmişdir. Ayrı-ayrı təsərrüfatlar, o cümlədən Noraşen (indiki Şərur) rayonunun Qrxun, Çərçiboğan,Muğancıq-Müslüm, Yuxarı Aralıq, Naxçıvan (indiki Babək) etmişlər. Qazanılmış nailiyyətlərə görə 300 nəfər staxanovçu Ümumiittifaq Kənd Təsərrüfatı Sərgisinə göndərilmişdir.

1939-cu ilin nəticələrinə görə Ümumiittifaq Kənd Təsərrüfatı Sərgisinin baş komitəsi Naxçıvan MSSR-in qabaqcıl kolxozlarını və kolxozçularını sərginin qızıl və gümüş medalları ilə təltif etmişdir. Noraşen (Şərur) rayonunun Qıvraq kəndindəki (hazırda Kəngərli rayonuna daxildir) “Qırmızı Oktyabr” kolxozu 1937-1938-ci illərdə orta hesabla hər hektardan 13, 5 sentner tütün götürdüyünə görə birinci dərəcəli, Yurdçu kəndindəki Puşkin adına kolxoz 12, 48 sentner tütün verdiyi üçün ikinci dərəcəli diplomlara layiq görülmüşlər.

Sərxanlı kəndindəki kolxozun manqabaşçısı İlyas Mustafayev 3 hektar sahənin hər hektarından 75 sentner pambıq verdiyinə görə qızıl medalla, Yurdçu kəndindəki kolxozun briqadiri Ələsgər İbrahimov təhkim olunduğu sahənin hər hektarından 14, 14 sentner tütün verdiyinə görə, və Maxta kəndindəki kolxozun manqabaşçısı Ümbülü Məcidova hər hektardan 47,75 sentner, manqa başçısı Yəhya Tağıyev 51,15 sentner pambıq verdiyinə görə gümüş medalla təltif olunmuşlar.

Kolxozlarla əlbir işləyən maşın-traktor stansiyalarının staxanovçuları da yüksək göstəricələrə görə dövlət mükafatları ilə təltif olunmuşlar. Onlardan Noraşen rayon (Şərur) MTS-nin aqronomu Əhməd Həsənov, traktorçular Yunis Tarverdiyev, Yusif Hacıyev və Naxçıvan MTS-nin traktorçusu Əmir Babayev yüksək keyfiyyətli şum edib dövlət planını artıqlaması ilə yerinə yetirdiklərinə görə gümüş medallar almışlar. Bundan başqa birinci dərəcəli diplom almış Qıvraq kəndindəki “Qırmızı Oktyabr” kolxozuna 1 minik maşını, 10 min manat, ikinçi dərəcəli diplom almış Yurdçu kəndindəki Puşkin adına kolxoza 1 motosiklet və 5 min manat pul mükafatı verilmişdir.

Torpaq işi staxanovçulardan aylıq iş planını 12 gündə Bayram Mikayılov 187 faiz, Səttar Səttarov 175 faiz yerinə yetirmişlər.

Sosializm yarışı və Staxanov hərəkatının geniş yayılması nəticəsində ölkəmizdə sənayedə əmək məhsuldarlığı plan üzrə 63 faiz əvəzinə 82 faiz artmış, sənayedə ikinci beşillik plan vaxtından 9 ay əvvəl yerinə yetirilmişdir. O vaxt bu fəhlə sinfinin ən böyük nailiyyətlərindən biri idi.

Müharibə (1941-1945-ci illər) illərinin staxanovçuları

Böyük Vətən müharibəsi illərində muxtar respublikanın staxanovçuları misilsiz əmək nümunələri göstərmişlər. Naxçıvan MSSR-in vətənpərvər kolxozçuları Vətənə daha çox kənd təsərrüfatı məhsulları vermək, müharibənin törətdiyi çətinliklərə baxmayaraq arxa cəbhədə əhalinin korluq çəkməməsi naminə durmadan çalışaraq məhsul istehsalını xeyli artırmağı öhdələrinə götürmüşlər. Bu öhdəliklərin parlaq timsalını Noraşen rayonunun (Şərur) Qarabağlar kəndindəki Karl Marks adına kolzozun üzvlərinin 1943-cü ildə muxtar respublikanın bütün kolxozçularına müraciətində aydın görmək olar. Müraciətdə deyilirdi: “Bizim kolxozda heyvandarlıqdan alınan gəlir ümumi gəlirin 65 faizini təşkil edir. Fermada 544 baş qaramal, 2 min başdan çox qoyun, 41 at və s. heyvanlar vardır. Biz dövlətə 19 pud ət, 50 pud yağ, 64 pud pendir, 110 pud un və başqa kənd təsərrüfatı məhsulları, bundan əlavə 1944-cü ilin tədarükatı hesabına 19 baş iribuynuzlu, 25 baş xırdabuynuzlu heyvan vermişik. 100 inəkdən 85 baş, 100 qoyundan 98 baş bala alınıb saxlanılır. Bu işdə ferma müdiri Manaf Cəlilov, baş çoban Hüseynov, çoban Fərman Süleymanov, sağıcı Xanım Babayeva, Telli Həsənova və başqaları xüsusilə fərqlənmişlər”.

Onlar öz müraciətlərində muxtar respublikanın bütün kolxozçularını məhsul istehsalını daha da artırmağa çağırırdılar.

Karl Marks adına kolzozun əməkçilərinin bu vətənpərvərlik təşəbbüsü muxtar respublika kolxozçularını daha da ruhlandırdı və onlar düşmənin darmadağın edilməsi naminə yüksək öhdəliklər götürərək öz vədlərinə şərəflə əməl etdilər.

Müharibə illərində Ordubad konserv zavodunun staxanovçuları konserv hazırlanması üzrə dövlət planlarını vaxtından əvvəl, artıqlaması ilə yerinə yetirdiklərinə görə Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanı ilə təltif olunmuşlar.

Təltif olunanlar içərisində zavodun direktoru Mixail Xaydakatov, tədarükçü Səfər Tağıyev, konserv bişirən Məleykə İmanova, istehsalat sex rəisi Əsəd Abbasov, təmizləyici Məmməd Əliyev və b. yoldaşlar vardır.

SSRİ Ali Soveti Rəyasət Heyətinin 22 noyabr 1943-cü il tarixli fərmanı ilə kənd təsərrüfatını və heyvandarlığı inkişaf etdirmək haqqında dövlət tapşırıqlarını nümunəvi yerinə yetirdiklərinə görə Azərbaycan SSR-in 485 nəfər qabaqcıl kolxozçusu və kənd təsərrüfatı işçisi SSRİ-nin orden və medalları ilə təltif edilmişdir. Onlardan 13 nəfəri muxtar respublikanın staxanovçuları idi. Təltif olunanlar işərisində Yunis Hənifə oğlu Hüseynov (Lenin ordeni ilə), Allahverdi Hüseynov (Lenin ordeni ilə), Şamil Rasizadə (Qızıl Əmək bayrağı ordeni ilə), Liftir Andreyeviç (Əmək igidliyinə görə medalı ilə), İmamalı Nəcəfalı oğlu Hacıyev (Əmək igidliyinə görə medalı ilə), Heydər Talıb oğlu Qəmbərov (Əmək igidliyinə görə medalı ilə), Mirzəmməd Cümşüd oğlu Yaqubov (Əmək igidliyinə görə medalı ilə), Hüseynqulu Pirnulu oğlu Əliyev (Əməkdə fərqlənməyə görə medalı ilə), Göhər Ələsgərova (Əməkdə fərqlənməyə görə), Səfəralı Zeynalabdin oğlu Cəfərov (Əməkdə fərqlənməyə görə), Qurbanəli Zeynalabdin oğlu İsmayılov (Əməkdə fərqlənməyə görə), İbrahim Fərrux oğlu Pənahov (Əməkdə fərqlənməyə görə) və Məmməd Rəhimov (Əməkdə fərqlənməyə görə) medalları ilə təltif olunmuşlar.

Fərmanda göstərildiyi kimi, Naxçıvan MSSR-in zəhmətkeşləri müharibə illərində misli görünməmiş yüksək şüurluluq nümunəsi göstərərək xalq təsərrüfatının bütün sahələrində böyük müvəffəqiyyətlər qazanmış və dövlətə tədarükat planından artıq tonlarla məhsul vermişlər. Məhz buna görə də Naxçıvanın zəhmətkeş kolxozçularının fədakar əməyi sonralar yenə də yüksək qiymətləndirilmiş, partiya və sovet işçilərindən 9 nəfəri 1945-ci ildə ikinci dərəcəli Vətən müharibəsi ordeni ilə təltif olunmuşdur.

## NƏTİCƏ

Göründüyü kimi, bölgəmizin sənaye müəssisələrində və tarlalarda çalışan zəhmətkeş həmyerlilərimizin tərəqqi və müharibə dövründəki uğurları müəyyən sahələr üzrə daha yüksək olmuşdur. Onların bu əməksevərliyi və göstərdiyi əmək qəhrəmanlıqları cavabsız qalmamışdır. Bütün bunlar dəfələrlə partiya və dövlət tərəfindən yüksək qiymətləndirilmiş, onlar müxtəlif pul mükafatları, fəxri fərman, diplom və s. ilə mükafatlandırılmış, orden və medallarla təltif edilmişlər. Xüsusilə müharibə illərində yenilikçi həmyerlilərimiz hətta ittifaqda ən yüksək göstəricilərə nail olmuşlar.

Öz şanlı ənənələrinə sadiq qalan muxtar respublikamızın əməkçiləri Staxanov hərəkatının 50 illiyi ərəfəsində sosialzm yarışını daha da genişləndirmiş və on birinci beşilliyin yekun ilinin tapşırıqlarını və bütövlükdə beşilliyi vaxtından əvvəl yerinə yetirərək, partiyanın XXVII qurultayını yüksək əmək nailiyyətləri ilə qarşılamaq üçün bütün qüvvə və bacarıqlarını əsirgəməmişlər. Həmyerlilərimiz xalq təsərrüfatının bütün sahələrində çox böyük uğurlar qazanmışlar. Həmin illərdə zəhmətkeş kənd əməkçiləri yüksək öhdəliklər götürərək öz vədlərinə şərəflə əməl etmişlər.

Muxtar respublikanın fədakar əməkçiləri Vətənə daha çox məhsul vermək, əhalinin rifahı naminə çalışaraq məhsul istehsalını xeyli artırmışlar. Sonrakı illərdə Naxçıvan zəhmətkeşləri Staxanov hərəkatını daha da genişləndirərək bütün qüvvələrini səfərbərliyə almışlar.

## ƏDƏBİYYAT


1. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi (NMRDA): f. 299, s.1, iş 37, v.
2. NMRDA: f. 314, s.11, iş 206, v.
3. NMRDA: f. 34, s.1, iş 58, v.
4. NMRDA: f. 34, s.1, iş 60, v.
5. "İşıqlı yol" qəzeti, 31 avqust 1985-ci il
6. "Sovet Naxçıvanı" qəzeti, 27 iyul 1985-ci il
7. Газета "Советская Нахичевань", 31 июля 1985 г.


## SUMMARY

## STAKHANOVITES: A YEAR OF UPHILUST AND WAR (1935–1945)


**Fakhraddin Jafarov, Yashar Rakhimov**



The study of the history of Azerbaijan and its integral part, the Nakhchivan region, in the 1920s and 1930s is of great scholarly and political significance. This article examines the Stakhanovite movement-one of the growing movements for increased labor productivity in the 1930s, the beginning of a broader struggle for the full fulfillment of state mandates, the measures taken by the party to transform this movement into a mass movement, and the activities of its representatives in the autonomous republic. The enormous creative force of this movement played a significant role in the unparalleled labor feat of the workers of our autonomous republic. The selfless labor of the Stakhanovites, including those who toiled in industrial enterprises and collective farm fields in the autonomous republic, played a decisive role in achieving victory over the enemy. The article also examines the awarding and rewarding of the autonomous republic's innovators—the Stakhanovites. It was emphasized that this movement arose in 1935 as a new stage in the struggle for socialism. The workers of our autonomous republic, true to their glorious traditions, have further expanded the race for socialism. It also examines the activities of the autonomous republic's Stakhanovites during the war and reconstruction. Hardworking rural workers took on great responsibility and fulfilled their promises. Our compatriots have achieved great success in all areas of the national economy.



**Keywords:** Nakhichevan, Stakhanov, innovation, years of progress, war years, awards and prizes.


## РЕЗЮМЕ

## СТАХАНОВЦЫ ГОД ПОДЪЕМА И ВОЙНЫ (1935–1945)


**Фахраддин Джафаров, Яшар Рагимов**



Изучение истории Азербайджана и его неотъемлемой части – Нахчыванского края – в 1920–1930-е годы имеет большое научное и политическое значение. В статье рассматривается стахановское движение -одно из разраставшихся в 1930-е годы движений за повышение производительности труда, начало расширения борьбы за полное выполнение государственных заданий, меры, принятые партией по превращению этого движения в массовое, а также деятельность представителей этого движения в автономной республике. Огромная созидательная сила этого движения сыграла важную роль в беспримерном трудовом

подвиге трудящихся нашей автономной республики. Самоотверженный труд стахановцев, в том числе трудившихся на промышленных предприятиях и колхозных полях автономной республики, сыграл решающую роль в достижении Победы над врагом. В статье также рассматриваются и изучаются вопросы награждения и поощрения новаторов автономной республики – стахановцев. Подчеркивалось, что это движение возникло в 1935 году как новый этап в борьбе за социализм. Трудящиеся нашей автономной республики, верные своим славным традициям, еще больше расширили гонку за социализм. Также рассматривается деятельность стахановцев автономной республики в годы войны и восстановления. Трудолюбивые сельские труженики взяли на себя высокую ответственность и выполнили свои обещания. Наши соотечественники добились больших успехов во всех областях народного хозяйства.

**Ключевые слова:** Нахичевань, Стаханов, новаторство, годы прогресса, военные годы, награды и премии.